UOT 336

# SƏNAYE MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏSİNİN PARAMETRİK MODELİ VƏ ONA EFFEKTİV YANAŞMA

**Xəyal İSKƏNDƏROV***

Məqalə redaksiyaya daxil olmuşdur: 12 mart 2025; çapa qəbul edilmişdir: 18 iyul 2025; online-da çap edilmişdir: 23 sentyabr 2025.

Received: 12th of March, 2025; accepted: 18th of Jule, 2025; published online: 23th of September, 2025.

**Açar sözlər**: *maliyyə potensialı, resurslardan səmərəli istifadə, iqtisadi resursların idarə edilməsi, maliyyə resurslarının təhlili, parametrik model*

## Giriş

İndiki şəraitdə ən vacib məsələlərdən biri iqtisadi sistemlərin maliyyə potensialının özünü təmin etməsi problemidir. Xüsusilə keçid iqtisadiyyatı şəraitində maliyyə resurslarının formalaşması, inkişafı və istifadə edilməsi sənaye müəssisələrinin iqtisadi mənafelərinin uzlaşmasını əks etdirir. Bu baxımdan, mövcud şəraitdə müəssisələrin maliyyə potensialının formalaşması ilə bağlı problemlərin aşkar edilərək həll edilməsi vacibdir.

Qeyd edilən problemlər müəssisələrin iqtisadi resurslarını tam şəkildə maliyyə potensialı səviyyəsinə çatdırmağa və ondan səmərəli istifadə etməyə imkan vermir. Həmçinin, maliyyə potensialının formalaşması və inkişafı üzrə qanunvericilik bazasının tez-tez dəyişməsi bu sahədə qeyri-sabitlik üçün əlverişli şərait yaradır.

Bu məqalədə sənaye müəssisələrinin maliyyə resurslarından səmərəli istifadəsinin parametrik modeli və onun təhlili müzakirə olunur. Sənaye müəssisələrinin maliyyə potensialını səmərəli qiymətləndirmək üçün mövcud elmi yanaşmalar əsasında sahənin maliyyə potensialının təsnifatının struktur xüsusiyyətlərini təhlil etmək lazımdır. Mövzunun əsas tədqiqat obyekti olan maliyyə potensialını təsnif etmək üçün istifadə olunan xüsusiyyətlərin məqsədəuyğunluğunu nəzərə almaq vacib məsələlərdən biridir.

## 1. Sənaye müəssisələrində maliyyə resurslarından səmərəli istifadənin təhlili və qiymətləndirilməsinə metodiki və effektiv yanaşmalar

Hər hansı bir ərazinin sosial-iqtisadi ehtiyaclarını ödəmək və milli maliyyə sisteminin mühüm tərkib hissəsi olan müəyyən bir ərazinin potensialından istifadə baxımından maliyyə potensialına xüsusi diqqət yetirmək lazımdır.

"Maliyyə potensialı kateqoriyasının öyrənilməsinin əsası, birincisi, dövlətin, bölgənin, bələdiyyənin iqtisadi potensialının xüsusi, müstəqil bir forması kimi məzmununun açıqlanmasıdır; ikincisi, maliyyə münasibətlərinin və maliyyə resurslarının

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* khayal.iskandarov97@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.4.091**

yenilənməsində və inkişafında vəhdətini ifadə edən bir kateqoriya kimi nəzərdən keçirilməsi; üçüncüsü, maliyyə potensialının əlaqələrinin və maliyyə axınlarının maliyyə sistemi vasitəsilə ifadəsidir" [6, s. 4].

Həmçinin maliyyə potensialı E.İsayev tərəfindən "maliyyə imkanlarının tənzimlənməsi üçün ümumi bir mexanizmin formalaşması, ərazilərin inteqrasiya olunmuş iqtisadi və maliyyə prosesləri, büdcə ilə əlaqələri" kimi qəbul olunur [5, s. 46]. Qeyd olunanlara əsasən, müəllif maliyyə potensialının 3 vacib xüsusiyyətini təklif etmişdir:

- Maliyyə münasibətlərinin və maliyyə resurslarının yenilənməsində və inkişafında vəhdət kimi;
- Dövlətin və ya regionun iqtisadi potensialının xüsusi müstəqil forması olaraq;
- "Maliyyə sistemi və əlaqələri ilə əks olunan bir kateqoriya kimi".

"Sənayenin maliyyə potensialı" anlayışının mahiyyətinin öyrənilməsi sahəsində mövcud elmi düşüncələri nəzərdən keçirərək hesab edirik ki, bu iqtisadi kateqoriyada maliyyə resurslarının yalnız genişləndirilmiş təkrar istehsala sərf olunan hissəsi nəzərə alınmalıdır. Sənaye müəssisələrinin maliyyə potensialının qiymətləndirilməsi zamanı ən əsas riyazi və iqtisadi tədqiqat metodlarından istifadə edilir. Bu metodlar sənaye müəssisələrinin maliyyə imkanlarını qiymətləndirməyə, həmçinin maliyyə vəziyyətinin yaxşılaşdırılmasına yönəlib.

Sənaye müəssisələrinin maliyyə potensialını qiymətləndirmək məqsədilə əməliyyat mərhələlərinin məntiqi ardıcıllığı təklif edilir. Həmin əməliyyat mərhələlərini müşahidə, qruplaşdırma və təhlil olaraq bir sistem halında birləşdirmək olar.

- ✓ I mərhələ: Müşahidə. Bu mərhələdə əsas istiqamət sənaye müəssisəsi haqqında məlumatların toplanması və maliyyə hesabatlarının öyrənilməsidir.
- ✓ II mərhələ: Qruplaşma. Bu mərhələdə müəssisə daxilində seçilmiş amillərin keyfiyyətcə eynicinsli amillərə təyin olunması, həmin amillərin tərkibinin əlamətlərinə görə öyrənilməsi və amillər daxilində dəyişə bilən göstəricilərdə qarşılıqlı asılı dəyişikliklərin öyrənilməsi nəzərdə tutulur.
- ✓ III mərhələ: Təhlil. Bu mərhələdə müəssisənin maliyyə potensialının qiymətləndirilməsi məqsədilə maliyyə göstəriciləri matrisinin formalaşdırılması və standartlaşdırılması, əsas variasiya göstəricilərinin müəyyən edilməsi, həmçinin müəssisədə maliyyə potensialının səviyyəsinin müəyyən edilməsi vacib prosesdir.

Ən vacib məqamlardan biri maliyyə resurslarının həcmini və dinamikasını, o cümlədən səmərəliliyini təhlil etməkdir. Sənaye müəssisəsinin pul vəsaitlərinin hərəkətinin səmərəli idarə edilməsi maliyyə tarazlığını təmin edir və müflisləşmə riskini azaldır, müəssisənin borc kapitalına ehtiyacını azaldır, kapital dövriyyəsini sürətləndirir. Beləliklə, səmərəli idarəetmə mənfəətin artımını təmin edir ki, bu da öz növbəsində regionun maliyyə potensialının tərkib hissəsi olan büdcə potensialının formalaşmasında iştirak edir.

Qeyd etdiyimiz əməliyyat mərhələlərinin köməyi ilə sənaye müəssisələrinin maliyyə potensialının sistemli şəkildə qurulmasına və maliyyə resurslarından səmərəli şəkildə istifadə edilməsinə yol açılır. Maliyyə potensialının səviyyəsini təyin etmək üçün müəssisənin likvidlik vəziyyətini, maliyyə sabitliyini və ödəmə qabiliyyətini qiymətləndirməyə imkan verəcək göstəriciləri seçmək daha məqsədəuyğundur. Həmçinin, onların hədd qiymətləri də müəyyən edilməlidir.

Sənaye müəssisələrində maliyyə potensialının səmərəli idarə edilməsi zamanı effektiv yanaşma mühüm rol oynayır. Qeyd etdiyimiz effektiv yanaşma aşağıdakı mərhə-

lələrdən ibarətdir:

- ✓ Maliyyə resurslarının yaradılması, formalaşması, bölüşdürülməsi və istifadəsi ilə bağlı bütün tədbirlərin məcmusu.
- ✓ Minimum xərclə maksimum təsir üçün maliyyə vəziyyətinin operativ təhlilinə əsaslanan tədbirlər.
- ✓ Təşkilati cəhətdən nizamlanan fəaliyyətləri təmin etmək məqsədilə yönəlmiş idarəetmənin təsiri və inkişafın nəticələrinin monitorinqi.
- ✓ Ərazi iqtisadiyyatının artımı ilə bağlı məqsədli proqramların həyata keçirilməsi məqsədilə maliyyə resurslarının həcminin təyin edilməsi və borc vəsaitlərinin cəlb edilməsi imkanlarının inkişafı.
- ✓ Effektiv və səmərəli idarəetmənin təmin olunmasına yönələn fəaliyyətlər kompleksi.

Nəticə etibarilə, təklif olunan effektiv yanaşma "sənayenin maliyyə potensialı" anlayışını təkcə resurs komponentinin istifadəsi nöqteyi-nəzərindən deyil, həm də effektiv xarakter göstərmək baxımından xarakterizə etməyə imkan verir. Aparılan tədqiqatda müasir iqtisadi şəraitin ehtiyaclarını nəzərə almaq və eyni zamanda "sənayenin maliyyə potensialı" anlayışını müəyyənləşdirmək lazımdır.

G.İvanova və R.Prokopenkonun fikirlərinə əsasən, maliyyə potensialını tam təmsil etmək üçün aşağıdakı bütün maliyyə axınlarını nəzərdən keçirmək məqsədəuyğundur [4, s. 183]:

- ✓ Vergilər
- ✓ Büdcə xərcləri
- ✓ Malların və xidmətlərin istehsalı
- ✓ İstehsal xarakterli digər əmtəə və xidmətlərə tələbat yaradan əmtəə və xidmətlərin istehsalı üçün maddi xərclər
- ✓ Firmaların investisiyaları – müxtəlif mənbələrdən ev təsərrüfatlarının gəlirləri.

Ümumilikdə, iqtisadi subyektlərin strukturunda ən böyük maliyyə potensialına iri və orta müəssisələr malikdir. Bu onu göstərir ki, məhsulların istehsalı və satış həcmləri bazarın tələbatını ödəyir, müəssisələr maliyyə müstəqilliyinə malikdirlər və fəal şəkildə maliyyə potensialı yaradırlar. Birinci qrupa şəxsi kapital və sonrakı dövrlərin xərcləri üçün ehtiyatlar, ikinci qrupa isə qısamüddətli və uzunmüddətli öhdəliklər, habelə gələcək mənfəət daxildir. Bu struktur mövcud vəziyyəti daha ətraflı qiymətləndirməyə və müəyyən bir regiondakı müəssisələrin maliyyə potensialının inkişafı üçün mümkün perspektivləri müəyyən etməyə imkan verəcəkdir.

Müəssisələrin maliyyə potensialını təhlil etmək üçün aşağıdakı tərkib hissələrə bölünmüşdür: şəxsi kapital, gələcək dövrün xərcləri və ödənişlər üçün ehtiyat, uzunmüddətli öhdəliklər, cari öhdəliklər və gələcək dövrün gəlirləri. Kiçik müəssisələrin maliyyə potensialının tərkib hissələrini ayırmaq mümkün olmadığı üçün bir cəm kimi təqdim olunur.

Sənaye müəssisələrində maliyyə təminatının səviyyəsini tənzimləmək məqsədilə aparılan proses həmin ərazinin iqtisadi subyektlərinin inkişafının monitorinqidir. Sənaye müəssisələrinin inkişafına nəzarət etmək və ona təsir göstərən yolları axtarmaq başlıca şərtdir. Bu tədbirlər həyata keçirilən zaman və nəticələr qiymətləndirilərkən yaranan müqayisələrin və ya diferensiallaşma göstəricilərinin dinamikasını təhlil etmək vacib prosesdir.

Müasir şəraitdə sənaye müəssisəsinin səmərəliliyi onun maliyyə resurslarının yaranması, formalaşması, bölüşdürülməsi, istifadəsi, təkrar istehsalı və qaytarılması mərhələlərində idarəetmə sisteminin səmərəliliyini əks etdirən bir-biri ilə əlaqəli

göstəricilər və əmsallar sistemindən istifadə etməklə tam sistemli şəkildə qiymətləndirmə yolu ilə müəyyən edilir.

**2. Sənaye müəssisələrinin maliyyə potensialından səmərəli istifadə edilməsinin parametrik modeli**

Sənaye müəssisələrinin maliyyə potensialını təhlil edərkən, yuxarıda qeyd etdiyimiz effektiv yanaşmadan əlavə, digər elmi yanaşmaları da qeyd etmək vacibdir.

Ə.Əhmədovun yanaşmasına görə, "maliyyə potensialının elementləri bunlardır: büdcə potensialı, əhalinin yığım potensialı və təsərrüfat subyektlərinin (maliyyə institutları və qeyri-maliyyə müəssisələri) investisiya potensialı" [1, s. 24]. Bu yanaşmanın başlıca fərqli cəhəti kredit potensialının ayrıca bir element olaraq daxil edilməsidir.

Y.Bulatovun yanaşmasında isə "regionun maliyyə potensialının strukturu aşağıdakı elementlərdən ibarət olmalıdır" [2, s. 94]:

- ✓ Ərazinin iqtisadiyyatının real sektorunun maliyyə potensialı;
- ✓ Ev təsərrüfatlarının maliyyə potensialı;
- ✓ Ərazinin büdcə potensialı;
- ✓ Kiçik biznesin potensialı;
- ✓ Regionun investisiya potensialı.

Sənayenin maliyyə potensialının idarə edilməsi ilə bağlı iki əsas amil var: biri mümkün gəlirin real gəlirə çevrilməsi prosesi, digəri isə subyektlərin xüsusi gəlir formaları – maliyyə resurslarının yaranmasıdır. Maliyyə potensialının düzgün idarə edilməsi üçün iqtisadi inkişafın yüksək nəticələrini təmin edəcək məqsədlərin dəqiq müəyyənləşdirilməsi çox önəmlidir. Bu məqsədlər bunlardır:

- ✓ Sahəni mülkiyyət, borc və yenidən bölgü vasitəsilə lazım olan maliyyə resursları ilə təmin etmək;
- ✓ Maliyyə axınının artması üçün maliyyə sistemindəki subyektlərin stimullaşdırılması;
- ✓ Resursların regional iqtisadi sistem subyektləri arasında və dövlətin xeyrinə yenidən bölüşdürülməsi;
- ✓ Maliyyə resurslarının formalaşması, bölüşdürülməsi və istifadəsi prosesinə nəzarət;
- ✓ Müxtəlif təhlükələrdən sığorta təmin edilməsi.

Bu yanaşma ilə razılaşaraq, sənaye iqtisadiyyatının real sektoru və kiçik biznesin potensialını ümumi bir kateqoriya – "təsərrüfat subyektlərinin maliyyə potensialı" adı altında birləşdirmək mümkündür, çünki bu elementlər bir-biri ilə sıx əlaqəlidir.

Hazırda ən aktual məsələlərdən biri iqtisadi sistemlərin maliyyə potensialının özünü təmin etməsidir. Sənaye müəssisələrinin maliyyə potensialı, onun istifadə olunub-olunmamasından asılı olmayaraq, sərəncamında olan resursların müxtəlifliyi ilə bağlıdır.

Qeyd edək ki, sənayenin və onun tərkib hissələrinin maliyyə potensialının qiymətləndirilməsi üçün ümumi bir metodologiya mövcud deyil. Sənaye müəssisələrinin maliyyə potensialını daha düzgün qiymətləndirmək və proqnozlaşdırmaq üçün mövcud elmi yanaşmalara əsaslanaraq, sahənin maliyyə potensialının təsnifatının struktur xüsusiyyətlərini təhlil etmək daha məqsədəuyğundur.

Sənaye müəssisələrinin maliyyə potensialını təsnif etmək üçün istifadə olunan xüsusiyyətlərin məqsədəuyğunluğunu nəzərə alaraq, bu iqtisadi kateqoriyanı aşağıdakı kriteriyalara əsaslanaraq təsnif etməyi təklif edirik:

- ✓ Ölçü vahidləri;

- ✓ Formalaşma sahələri;
- ✓ Maliyyələşdirmə mənbələri;
- ✓ İstifadə dərəcəsi;
- ✓ Potensialın reallaşma dərəcəsi.

Yuxarıda qeyd edilənlərə əsaslanaraq, sənaye müəssisələrinin maliyyə potensialının strukturunda duran büdcə potensialı, kredit potensialı və təsərrüfat subyektlərinin maliyyə potensialı kimi əsas elementlərin təyin edilməsi daha məqsədəuyğun hesab edilir.

Maliyyə potensialının idarə edilməsi, sosial-iqtisadi inkişafın davamlılığını təmin etmək məqsədilə maksimal səmərə əldə etmək üçün bir-biri ilə sıx əlaqəli və asılı prinsiplər əsasında həyata keçirilməlidir. Bu prinsiplərə aşağıdakılar daxildir:

- ✓ İqtisadi təhlükəsizlik;
- ✓ Maliyyə özünütəminatına nail olmaq məqsədilə sistemli, kompleks və məqsədyönlü yanaşma;
- ✓ Dövlət-özəl və sosial tərəfdaşlıq;
- ✓ Makro, mezo və mikro səviyyələrin inkişafının sinxronluğu;
- ✓ Strateji çeviklik;
- ✓ Xarici mühitdəki dəyişikliklərə uyğunlaşma;
- ✓ Təsərrüfat subyektləri arasında maliyyə resurslarının tarazlığını təmin etmək;
- ✓ Müvəqqəti sərbəst maliyyə resurslarının toplanması.

Son olaraq demək olar ki, maliyyə potensialının idarə edilməsi əsasən maliyyə siyasətinin optimallaşdırılmasına yönəlib. Həmçinin, maliyyə siyasətinin səmərəliliyi sənayenin sosial-iqtisadi inkişafına olan maliyyə dəstəyinin davamlılığı ilə ölçülür.

**Nəticə**

Beləliklə, qeyd etmək lazımdır ki, sənaye müəssisələrinin maliyyə potensialının ümumi təsnifat strukturu bu kateqoriyanı daha hərtərəfli öyrənməyə, yəni sənaye müəssisələrinin maliyyə potensialını icra dərəcəsi ilə xarakterizə edərkən və maliyyə potensialının reallaşdırılması zamanı əldə olunmuş nəticələri qiymətləndirməyə imkan verəcəkdir. Bu təhlil gələcəkdə sənaye müəssisələrində perspektivli imkanları proqnozlaşdıracaqdır.

Maliyyə potensialının fundamental elementlərinin təyin edilməsi maliyyə potensialının keyfiyyət və kəmiyyət baxımından qiymətləndirilməsinə, o cümlədən ondan istifadənin səmərəliliyini müəyyən etməyə imkan verəcəkdir. Sənaye müəssisələrinin maliyyə potensialının idarə edilməsi üçün məntiqi konstruksiyadan istifadə edərək bir-biri ilə qarşılıqlı əlaqəli prinsiplər vasitəsilə ərazinin sosial-iqtisadi inkişafının davamlılığını təmin etmək mümkün olacaq.

Sənaye müəssisələrinin maliyyə potensialının effektiv yanaşma nöqteyi-nəzərindən idarə edilməsi üçün təklif olunan təlimatlar onun əsas elementlərinin yüksəlməsinə təsir göstərir və idarəetmə üsullarını təkmilləşdirməyə yönəlib.

Ümumilikdə, maliyyə potensialının yüksəldilməsi perspektivlərini proqnozlaşdırmaq, qiymətləndirmək və təhlil etmək üçün müəssisə və təşkilatların maliyyəsinin əsas yaranma mənbələrini, şəxsi vəsait və borc vəsaitləri üzrə strukturlaşdırmaq və sistemləşdirmək daha effektiv nəticə əldə etməyə kömək edər. Hesab edirik ki, biznesin və istehsal həcmindən asılı olmayaraq, sənaye müəssisələrinin maliyyə potensialının aşağıdakı yollarla artırılması daha məqsədəuyğundur:

- ✓ Real maliyyə resurslarının həcminin maksimuma yüksəldilməsi;
- ✓ Əlavə gəlirlərin toplanması;

- ✓ Sabit ödəmə qabiliyyətinin və kifayət qədər maliyyə sabitliyinin tam təmin edilməsi;
- ✓ Maliyyə resurslarının təsərrüfat fəaliyyətinin növləri və əsas sahələri üzrə bölüşdürülməsində tarazlığın təmin edilməsi;
- ✓ Sənaye müəssisəsinin maliyyə risklərinin mümkün mənfi nəticələrinin neytral-laşdırılması;
- ✓ Sənaye müəssisəsinin maliyyə resurslarından istifadə edilməsi zamanı onların gəlirliliyinin yüksək səmərəliliyinin təmin edilməsi.

## ƏDƏBİYYAT


1. Ахмедов А.Б. Финансовый потенциал региона и его использование в системе межбюджетных отношений: автореф. дис. канд. экон. наук: 08.00.10 / А.Б.Ахмедов. Махачкала, 2005, 27 с.
2. Булатова Ю.И. Финансовый потенциал региона: содержание и структуры // Вестн. Санкт- Петербург. Унта, 2010, №3, с. 94-97.
3. Иванова Г.В. Финансовая нестабильность региона: методы оценки и инструменты элиминирования // Экономические и социальные перемены: факты, тенденции, прогноз, 2014, №6, с. 183-198.
4. Исаев Э.А. Финансовый потенциал региона: консолидация, саморазвитие, регулирование // Финансовая экономика, 2010, №3, с. 46 65.
5. Яруллин Р.Р. Теоретические основы финансового потенциала региона // Современные проблемы науки и образования, 2011, №6, с. 7-8.


***Резюме***

***Хаял Искандеров***


***Анализ финансового потенциала промышленных предприятий***

Статья рассматривает важность эффективного использования финансового потенциала промышленных предприятий в экономических системах и проблемы, с которыми сталкиваются предприятия в этом процессе. В условиях переходной экономики формирование и использование финансовых ресурсов требует согласования экономических интересов предприятий. Однако проблемы, связанные с формированием и развитием финансового потенциала, препятствуют полному эффективному использованию ресурсов, а частые изменения в законодательной базе создают условия для нестабильности в этой области.

В статье рассматриваются различные научные подходы и структура классификации, используемые для эффективной оценки финансового потенциала промышленных предприятий. Подчеркивается важность правильного выбора и использования характеристик для эффективного использования финансового потенциала. Целью является оценка эффективности параметров и подходов, анализируемых для обеспечения максимальной отдачи от финансовых ресурсов предприятий.

В заключение следует отметить, что дополнительная классификационная структура финансового потенциала региона позволит более полно изучить категорию, то есть охарактеризовать финансовый потенциал региона с учетом уровня реализации и оценки достигнутых результатов. Это также позволит прогнозировать перспективные возможности в будущем. Определение основных элементов финансового потенциала позволит оценить его качество и количество, а также эффективность его использования. Такой подход помогает обеспечить устойчивое социально-экономическое развитие региона и достичь максимальной эффективности его использования как элемента национальной экономики.

Кроме того, в статье подчеркивается, что для более детального прогнозирования и анализа перспектив повышения финансового потенциала его следует структурировать по основным источникам формирования финансовых ресурсов, включая личные средства и заемные средства.

В итоге для повышения финансового потенциала предприятий определены несколько направлений: накопление дополнительного дохода, максимизация объема реальных финансовых

ресурсов, обеспечение стабильной платежеспособности и финансовой устойчивости, нейтрализация возможных негативных последствий финансовых рисков, обеспечение сбалансированности распределения финансовых ресурсов по видам хозяйственной деятельности и повышение их доходности.

**Ключевые слова:** *финансовый потенциал, эффективное использование ресурсов, управление экономическими ресурсами, анализ финансовых ресурсов, параметрическая модель*

***Summary***

***Khayal Iskenderov***

***Analysis of the Financial Potential of Industrial Enterprises***

The article discusses the importance of the effective use of financial potential in industrial enterprises within economic systems and the challenges enterprises face in this process. In the context of a transition economy, the formation and use of financial resources require balancing the economic interests of enterprises. However, issues related to the formation and development of financial potential hinder the full and effective use of resources, while frequent changes in legislation create conditions for instability in this area.

The article examines various scientific approaches and classification structures used to evaluate the financial potential of industrial enterprises effectively. It emphasizes the importance of correctly selecting and using characteristics to ensure the efficient use of financial potential. The goal is to evaluate the effectiveness of the parameters and approaches analyzed to ensure maximum return from enterprise financial resources.

In conclusion, it should be noted that the additional classification structure of the financial potential of the region will allow for a more comprehensive study of the category, characterizing the financial potential of the region in terms of the degree of implementation and assessing the results achieved. This approach will also help forecast future opportunities. Identifying the fundamental elements of financial potential will allow for an evaluation of its quality and quantity and its efficiency. This approach helps ensure the sustainable social and economic development of the region and achieve maximum efficiency of its use as an element of the national economy.

Furthermore, the article stresses that for more detailed forecasting and analysis of the prospects for improving financial potential, it should be structured according to the main sources of financial resource formation, including personal and borrowed funds. Ultimately, several directions for improving the financial potential of enterprises are defined: accumulating additional income, maximizing the volume of real financial resources, ensuring stable solvency and financial stability, neutralizing the potential negative effects of financial risks, ensuring balanced distribution of financial resources across types of economic activities, and increasing their profitability.

**Key words:** *financial potential, efficient use of resources, management of economic resources, analysis of financial resources, parametric model*

Şöbə redaktoru i.ü.f.d., dos. Ələsgərova Flora Qəməndər qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.